*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitinin ELMİ ƏSƏRLƏRİ № 30, 2021*
*УЧЁНЫЕ ЗАПИСКИ Азербайджанского Государственного Университета Культуры и Искусств № 30, 2021*
*SCIENTIFIC NEWS of Azerbaijan State University of Art and Culture № 30, 2021*

**UOT 76**

**Aslan Xəlilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: aslan_ashiq@mail.ru**

# ƏLƏKBƏR RZAQULİYEV YARADICILIĞINDA DİNİ-MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ HƏLLİ

**Xülasə**: Məqalədə Əməkdar rəssam Ələkbər Rzaquliyevin yaradıcılığında dini-mənəvi dəyərləri əks etdirən qrafik lövhələr tədqiq edilir. Bu mənada rəssamın keçmiş müşahidələri əsasında bədii görüntüyə gətirilmiş “Mədrəsə” (“Köhnə məktəb”) (1961), “Mədrəsədə cəza” (1962), “Azançı” (1965), “Namaz” (1965), “Mollanı kəndə aparırlar” (1965), “Mollanın yanında” (1968), “Bakı. Suraxanı Atəşgahı” (1968), “Bakı. Atəşpərəst məbədi” (1971) və s. qeyd etmək olar. Bu əsərlərdə rəssam dini-mənəvi dəyərləri duyğulandırıcı tutumda ifadə etməyə nail olmuşdur.

**Açar sözlər**: Ələkbər Rzaquliyev, qrafika, dini-mənəvi, əsər, linoqravüra

Özünü Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi kimi təsdiqləyən Əməkdar rəssam Ələkbər Rzaquliyev milli mədəni irsimizi bütün mənalarda zənginləşdirən sənətkarlardandır. Rəssamın yüksək bədii-estetik dəyərə malik olan və özündə qədim milli miniatür ənənələrinin müxtəlif inkişaf mərhələlərinin cizgilərini əks etdirən çoxsaylı qrafika əsərləri bunun əyani göstəricisidir. Vurğuladığımız məziyyətləri onun həm məşhur “Köhnə Bakı”, həm də digər mövzuları əhatə edən linoqravürlər silsilələrində müşahidə etmək mümkündür.

Bilavasitə milli mənəvi qaynaqlardan yaradıcılıqla faydalanmasının nəticəsidir ki, onun ağ-qara cizgilərlə ifadə olunmuş bu kompozisiyalarında ənənə və müasirliyin uğurlu nəticəsini görmək mümkündür.

Müraciət etdiyi çeşidli motivlərin cəlbedici və təsirli bədii tutumunun əldə olunmasına səy göstərən Ə.Rzaquliyev bilavasitə miniatür üslubunun müxtəlif bədii məziyyətlərindən, bir az da primitiv sənətdən gəlmə bədii-estetik məziyyətləri yeni və daha müasir biçimdə təfsir etməklə, əsərlərin tarixi-etnoqrafik tutumunu gələcəyə ünvanlanmış inandırıcı bədii sənədə çevirməyə nail olmuşdur. Bu linoqravürlərdə müşahidə olunan kompozisiya yığcamlığı, siluet ifadəliliyi və cizgi oynaqlığı bədii təzadlar kontekstində şərh olunduğundan hər bir əsər təsirli baxılır.

Ə.Rzaquliyev bir mövzunun hərtərəfli açılmasına və onun tamaşaçı marağına səbəb olmasına nail olmaq üçün müraciət etdiyi motivlər arasında özündə dini-mənəvi dəyərləri əks etdirən qrafik lövhələr olduqca böyük maraq doğurur.

Bu mənada rəssamın keçmiş müşahidələri əsasında bədii görüntüyə gətirilmiş "Mədrəsə" ("Köhnə məktəb") (1961), "Mədrəsədə cəza" (1962), "M.Ə.Sabir mollaxanada" (1962), "Azançı" (1965), "Namaz" (1965), "Mollanı kəndə aparırlar" (1965), "Mollanın yanında" (1968), "Bakı. Suraxanı Atəşgahı" (1968), "Bakı. Atəşpərəst məbədi" (1971) və s. qeyd etmək olar.

"Köhnə Bakının məişətini, varlılar və yoxsullar dünyasının rəngarəng və təzadlı lövhələrini, müxtəlif ictimai təbəqələrə mənsub adamların surətlərini vaxtilə Ə.Əzimzadə özünün satirik rəsmlərində məharətlə tənqid atəşinə tutmuşdur. Ə.Rzaquliyev isə keçmişi tarixi-sənədli səpkidə canlandırır, etnoqrafik elementlərdən istifadə edir. Lakin rəsmlərdə keçmiş məişətin mənfi cəhətlərinə rəssamın tənqidi münasibəti də nəzərə çarpır" [2]. Onlardan biri Azərbaycanın kommunist-bolşevik qoşunları tərəfindən işğalına qədərki dövrdə ölkədə həyata keçirilən təhsillə bağlıdır.

"Mədrəsə" ("Köhnə məktəb") (1961) və "Mədrəsədə cəza" (1962) əsərlərində molla tərəfindən dərslərini yaxşı oxumayan şagirdlərin cəzalanma səhnəsi canlandırılıb.



***Ə.Rzaquliyev. "Mədrəsə" ("Köhnə məktəb").***
***"Köhnə Bakı" silsiləsindən. 1961.***

Kompozisiyaların hamısında rəssam əsas fiquru – mollanı mərkəzdə, şagirdləri isə dairə boyu yerləşdirməklə kompozisiyanın daha baxımlı olmasını şərtləndirə bilmişdir. Bu cür bədii kompozisiya qurmaq metodu təbii ki, qədim miniatür ənənələrindən qaynaqlanır. Diqqət çəkən nüanslardan biri də odur ki, kompozisiyada yerləşdirilən detalların heç biri təsadüfi deyil, hər bir element rəssam tərəfindən düşünülmüş şəkildə istifadə olunmuşdur.

Kompozisiyaların məna-məzmun tutumunu özündə hifz edən fiqurları daha çox tünd fon-yerlikdə görüntüyə gətirən rəssam, bununla həm onların cəlbediciliyinə, həm də düşündürücü tutum almasına nail olmuşdur. Səth boyu kifayət qədər cizgi müxtəlifliyinə və axıcı ritmə müraciət edən sənətkar, bununla da kompozisiyanın oynaqlığına nail olmuşdur. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, rəssam hələ tələbəlik dövründə "Mədrəsə" ("Mollaxana") əsərini rəngkarlıqda işləmişdir. Onun 30 ildən sonra bu mövzuya yenidən qayıtması və düşüncələrini rəngkarlıqda yox, qrafikada ifadə etməsi də bu sahənin böyük sənətə qayıdışında önəmli yer tutması ilə bağlı olmuşdur.

Müasirlərinin və yaxınlarının dediyinə görə, Ə.Rzaquliyevin göz yaddaşı çox güclü olmuşdur. Rəssamın köhnə Bakını uşaqlıq təsəvvüründə illərlə qoruyub saxlaması və çox-çox sonralar onu linoqravürlərdə böyük sənətkarlıqla canlandıra bilməsi də bunu təsdiqləyir. Bu mənada bunların çoxunun süjetli kompozisiyalarda ifadə olunması da onun yaradıcılığı barəsində əhatəli söz deməyə əsas verir.

Rəssamın 1965-ci ildə çəkdiyi "Azançı" lövhəsi bu mövzunun Azərbaycan təsviri sənətində ilk bədiiləşdirilmiş nümunəsidir.



***Ə.Rzaquliyev. "Azançı".***
***"Köhnə Bakı" silsiləsindən. 1965.***

Ə.Rzaquliyevin uzun müddət ərzində korşalmayan yaddaşı bizi yenə də xəyalən əvvəlki Bakıya qaytarır. Dünyasını dəyişmiş insanın son mənzilə yola salınma ərəfəsində olduğunu gur səsi ilə ətrafdakılara bildirmək vəzifəsini yerinə yetirən azançı (müəzzin) obrazı bu əsərdə əhatəli şəkildə öz əksini tapmışdır.

Dəfn ərəfəsində yaşanan mənzərə Ə.Rzaquliyev tərəfindən maraqlı kompozisiyada təqdim olunmuşdur. Şaquli kompozisiyanı üst-üstə sıralanan şəhər mənzərəsinin fonunda təqdim olunanlar - ön planda üzəri qara parça ilə örtülmüş mafə, onun arxasında mərhumun evinin qarşısında sıralanan insanlar, daha sonra isə üzəri qırla örtülmüş birmərtəbəli evin damında azan çəkən mollanın təsviri təşkil edir. Müəllif mövzunun açımında detallaşdırmaya müraciət etməsə də, elə ifadəli ağ-qara cizgilərin köməyi ilə yaşanan matəm əhval-ruhiyyəsi lakonikliyi qabarıq görünən əsərdə kifayət qədər duyulmaqdadır. Mərasimə toplaşmış insanların kədərə bələnmiş donuq fiqurları mafənin və evin damının tünd rəngli örtüyü arasında seçildiyindən, kompozisiya daşıdığı ovqata müvafiq görünür...

Zamanında rəsm çəkdiyinə görə din xadimlərinin xeyir-dualarını ala bilməsə də, rəssam onların gün ərzində bir-neçə dəfə toplaşıb məhəllə məscidlərində namaz qılmalarına maraqla tamaşa etmişdi. Onun 1965-ci ildə ərsəyə gətirdiyi “Namaz” əsəri də həmin illərin xatirələrindən süzülüb gələn motivdir.



***Ə.Rzaquliyev. “Namaz”. “Köhnə Bakı” silsiləsindən. 1965.***

Kompozisiyaya üç nəfəri daxil edən Ə.Rzaquliyev onları müxtəlif vəziyyətlərdə görüntüyə gətirməklə, bütünlükdə təsvirin bədii cəhətdən oynaqlığına nail olmuşdur. Dindarların yaşantılarının inandırıcılığına səy göstərən rəssam, onları tez-tez müraciət etdiyi işıqlı fon-yerlikdə təsvir etməklə, fiqurların siluetlərinin ifadəliliyini əldə edə bilmişdir.

"Mollanı kəndə aparırlar" (1965) əsəri məna-məzmun tutumuna görə tamaşaçıda maraq oyada biləcək linoqravürlərdəndir. Elə əsərin kompozisiya həlli də orijinallığı ilə seçilir. Kompozisiyanı din xadiminin öz mollası olmayan kənddəki mərasimi idarə etməyə aparılması təşkil edir. Ənənəsinə sadiq qalan rəssam, bu mövzunun bədii şərhində də ironiya və incə yumorsuz keçinə bilməyib. Doğrudan da, uşaq tərəfindən idarə olunan uzunqulağın üzərindəki kişinin oturuşu və əli çətirli mollanın görüntüsü elə ilk baxışda tamaşaçısında incə təbəssüm yaradır. Əslində isə, onların bu vəziyyəti reallıqda yaşana biləcək hal olduğundan təbii qəbul olunur. Günəşli gündə uzaq yolu qət etməkdə olan mollanın özünü çətirlə qoruması və onun bu yolda darıxmaması üçün din xadimini kəndə qədər müşahidə edəcək kişinin uzanqulaqda tərsinə oturub onunla həmsöhbətə çevrilməsi yəqin ki, təbii qəbul olunmalıdır. Süjetin acımı üçün Ə.Rzaquliyevin profil təsvirdən istifadə etməsini də məntiqli saymaq olar. Belə ki, məhz belə baxış bucağı kompozisiyaya daxil edilmiş hər kəsin yaşantılarını bütün reallığı ilə əks etdirir. Diqqəti qət edəcəkləri yolda olan uşağın, söhbət edə-edə qəlyanını sümürən kişinin, eləcə də onu dinləyən mollanın duruşlarındakı təbiilik, eyni zamanda əsərin uğurunu təmin etmişdir.

Rəssamın "Mollanın yanında. Siğə" (1968) əsərini Azərbaycanın uzaq-yaxın keçmişinə tutulan "bədii güzgü"də əks olunan maraqlı süjetlərdən saymaq olar. Qadın-kişi tanışlığının dini qaydada rəsmiləşdirilməsini bədiiləşdirən rəssam, növbəti dəfə tamaşaçının yalnız ədəbiyyatlardan oxuduğu bu qaydanı öz gözü ilə görməyə şərait yaratmışdır...



***Ə.Rzaquliyev. "Mollanın yanında". "Köhnə Bakı" silsiləsindən. 1968.***

Mollanın evində baş tutan mərasimdə səbəbkarlar – kişi və qadın, eləcə də siğəni dini qaydalarla rəsmiləşdirən molla iştirak edir. Mollanın və evlənən kişinin qadına yönəli baxışlarında utancaqlıqla yaşmaqlanan qadından cavab gözlənildiyi duyulmaqdadır. Bədii həll ənənəsinə bu dəfə sadiq qalmayan rəssamın məkanı kifayət qədər zəngin tutumlu təqdim etməsi də, yəqin ki, mövzunun açımından irəli gələn məsələdir. Əslində mollanın evinin interyerini görüntüyə gətirən Ə.Rzaquliyev əski Azərbaycan evinin daxili mənzərəsi barəsində müəyyən təəssürat yaratmış olmuşdur.

Bütün yaradıcılığı boyu Azərbaycanın tarixi yerlərinə və memarlıq abidələrinə sonsuz sevgi və ehtiramını ifadə edən Ə.Rzaquliyev, bunu məşhur Atəşgaha həsr etdiyi dörd lövhədə də ifadə etmişdir. Onların hər birində də müəllifin motivə fərqli baxışı, gördüklərini oynaq-cəlbedici cizgilərlə ifadə etmək istəyi duyulur. Bu kompozisiyaların bir-birindən seçilən formata malik olmaları da diqqətçəkəndir. Ümumiyyətlə, bu amil Ə.Rzaquliyevin yaradıcılığında az əhəmiyyət kəsb etmir. Hər yeni müəllif fikrinin onun ifadəsi üçün format seçimindən başladığını yaxşı bilən rəssam, həm buna, həm məkana baxışın maraqlı və yeni olmasına çalışıb. Bu da ona yaratdığı çoxsaylı əsərlərin bütün mənalarda gözoxşayan olmasını şərtləndirmişdir. Onun Atəşgah ünvanlı əsərlərini təhlil etməklə buna əmin olmaq mümkündür. Bu yer keçmişlərdən başlayaraq həm əcnəbi səyyah və rəssamların, həm də yerli fırça ustalarının maraq dairəsində olub. Başqa sözlə desək, onları heyrətləndirib, o cümlədən də Ə.Rzaquliyevi... Azərbaycanlı rəssamın Atəşgaha dörd əsər həsr etməsi də onun bu heyrətinin çox dolğun olduğundan xəbər verir. Onlardan birində – “Bakı. Suraxanı Atəşgahı” (1968) lövhəsində paytaxtın yaxınlığındakı qəsəbədə yerləşən qədim tikiliyə özünəməxsus bədii münasibət sərgiləməsi də bunun göstəricisidir. Etiraf edək ki, Ə.Rzaquliyevin bu əsəri öz yaradıcılığında Atəşgahın təsvirinə yer ayırmış digər rəssamların əsərlərindən fərqlənir. Belə ki, başqa yaradıcılardan fərqli olaraq abidəyə ənənəvi olaraq həyətdən yox, kompleksi əhatələyən divardan kənardan – giriş qapısından göz qoyub.



***Ə.Rzaquliyev. "Bakı. Suraxanı Atəşgahı".***
***"Köhnə Bakı" silsiləsindən. 1968.***

İlk baxışda üst-üstə sıralanan kimi görünən bu tikililəri bir-birindən fərqləndirmək üçün rəssam şaquli kompozisiyada giriş tərəfi daha işıqlı, Atəşgahın özünü və arxasındakı tikililəri daha tünd rəngdə verməklə məkanın duyulanlığını və qabarıqlığını təmin etmişdir. Etiraf edək ki, rəssam Qız qalası ilə bağlı əsərində olduğu kimi, burada da cizgi incəliyindən ustalıqla istifadə etmişdir. Bu həm də ona qədim tikilinin fakturasını, detallarını qabarıq duymağa imkan vermişdir. Memarlıq kompleksinə insan təsvirlərinin əlavə olunması da burada həyatın davam etdiyinə işarə kimi qəbul olunur.

Məşhur abidəyə həsr olunmuş ikinci əsər də əvvəlki kimi "Bakı. Suraxanı Atəşgahı" (1968) adlanır. Bu dəfə rəssam Atəşgahın təsviri üçün fərqli zaman və baxış nöqtəsi seçmişdir. O, məbədi gecə vaxtı görüntüyə gətirməklə, onu qaranlıqda bacalarından çıxan alovun işığında təsvir etmişdir. Tikilinin divarlarının və daş döşənmiş yerin "qaralmış" mənzərəsi qarşılığında, abidəni dövrələyən divarların və giriş qapısının alovun işığına bələnmiş görüntüsü kompozisiyaya işıq-kölgə təzadı bəxş etməklə, məkanın baxımlı olmasını şərtləndirmişdir. Bura ibadətə gələnlərin vərəq boyu məntiqli düzülüşündə də kompozisiyaya bir canlılıq vermək istəyi duyulur.

Əvvəlki əsərindən fərqli olaraq kompozisiya üçün düzbucaqlı format seçən müəllif, bununla da təsvirin əhatəliliyinə nail olmuşdur. Bu da ona həm Atəşgahı, həm də onun ətrafında baş verənləri əks etdirməyə imkan vermişdir. Məbədin

bacalarından çıxan alovun ətrafı işıqlandırmasından yaranan mənzərənin cəlbediciliyi, kompozisiyaya oynaqlıq bəxş etməsi birmənalıdır...

"Bakı. Atəşpərəst məbədi" (1971) əsərində isə adətinə sadiq qalıb tamaşaçı xəyallarını uzaq keçmişə aparmağa çalışıb. Məbədin gecə görüntüsünü kompozisiya üçün əsas motiv seçən Ə.Rzaquliyev məkana yuxarıdan baxmaqla, abidənin özünəməxsus görkəm almasını şərtləndirmişdir. Məbədin və kompleksi dövrələyən divarların tünd, abidənin yerləşdiyi sahənin isə işıqlı təqdimatı cəlbedici təzadın yaranmasına səbəb olmuşdur. Kompleksi dəvə karvanlarının dövrələməsi, bura insan axının güclü olmasını vurğulamaqla yanaşı, həm də təsvirə oynaqlıq bəxş etmişdir. Məbədi əhatələyən hündür daş divarın tünd, yerin təkindən çıxan alovun təsiri altında tikilini əhatələyən geniş həyətin işıqlı təqdimatı, qədim abidənin müəllif arzusuna uyğun kompozisiyanın dominantına çevrilməsinə səbəb olmuşdur. Təsvirin aşağısını lent üzərində rus dilində yazılmış "Баку. Храм огнепоклонников" sözləri ilə tamamlamaqla təsvirə təntənəlilik bəxş etmişdir.

Rəssam 1971-ci ildə çəkdiyi "Bakı. Atəşpərəst məbədi" lövhəsində də məkana yuxarıdan baxmağa üstünlük vermişdir. Bununla abidənin və onu əhatələyən divarların aydın görüntüsünü əldə edən Ə.Rzaquliyev kompozisiyanın baxımlı olmasına nail olmuşdur.

Giriş qapısına toplaşmış dəvəli zəvvarların və məbədin ətrafında ibadət edənlərin təsviri məkanın inam və ehtiram ocağı kimi tanındığından xəbər verir. Rəssamın onları görüntüyə gətirməkdə məqsədi də abidəyə olan bu münasibətə bədii görkəm vermək olub. Həmişə olduğu kimi, bu dəfə də müəllif özünün cizgilərdən uğurlu istifadə istedadını sərgiləməklə, bütünlükdə kompozisiyanın cəlbediciliyini əldə etmişdir.

Nəticə etibarilə qeyd edək ki, təsvirlərin ifadəli və axıcı siluetinə nail olmaqla, motivi kompozisiyanın dominantına çevirə bilməsi Ə.Rzaquliyev yaradıcılığının səciyyəvi və bənzərsiz xüsusiyyəti idi. Linoqravüra texnikasında xarakter incəliyinin əldə olunması icra baxımından nə qədər çətin olsa da, rəssam demək olar ki, hər bir əsərdə, xüsusilə də məna-məzmun daşıyıcılığını öz üzərinə götürmüş müxtəlif obrazlarda peşədən və davranışdan irəli gələn mənəvi-psixoloji cəhətləri duyğulandırıcı tutumda ifadə etməyə nail olmuşdur.

## Ədəbiyyat siyahısı:

1. Əliyev Z. Ələkbər Rzaquliyev – 100 // Qobustan jurnalı, 2005. № 3
2. Həbibov N. Həyat lövhələri. "Kommunist" qəz., 1967, 2 aprel
3. Həbibova S. Ələkbər Rzaquliyev. "Sərvət". Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2013. 104 səh.
4. Rəssamın oğlu Aydın Rzaquliyevin şəxsi arxiv materialı.
5. Xəlilov A. Ələkbər Rzaquliyev yaradıcılığının bədii xüsusiyyətləri.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2017, 114 s.

6. Свиридова И.А. Алекпер Рзакулиев. М.: «Советский художник». 1970 г. 82 с.

**Аслан Халилов**

**Художественное решение религиозных и духовных ценностей в работах Алекбера Рзагулиева**

**Резюме**: В статье исследуются графические работы, отражающие религиозные и духовные ценности в произведениях заслуженного художника Алекбера Рзагулиева. В этом смысле, исходя из прошлых наблюдений художника, следует отметить такие работы как «Медресе» («Старая школа») (1961), «Наказание в медресе» (1962), «Азанчи» (1965), «Молитва» (1965), «Муллу ведут в село» (1965), «У Моллы» (1968), «Баку. Сураханы Атешгях» (1968), «Баку. Храм Огня» (1971) и др. В этих произведениях художнику удалось эмоционально передать религиозные и духовные ценности.

**Ключевые слова:** Алекпер Рзагулиев, графика, религиозно-духовный, произведение, линогравюра

**Aslan Khalilov**

**Artistic solution of religious and spiritual values in the works of Alakbar Rzaguliyev**

**Summary:** The article examines the graphic works reflecting religious and spiritual values in the creativity of Honored artist Alakbar Rzaguliyev. In this sense, based on the artist's past observations, “Madrasa” (“Old School”) (1961), “Punishment in Madrasa” (1962), “Azanchi” (1965), “Prayer” (1965), “Mullah is taken to the village” ( 1965), “Beside the Molla” (1968), “Baku. Surakhani Ateshgah” (1968), “Baku. Temple of Fire” (1971) and others can be noted. In these works, the artist managed to express the religious and spiritual values in an emotional way.

**Key words:** Alakbar Rzaguliyev, graphics, religious-spiritual, work, linocut

**Məqalənin redaksiyaya daxil olma tarixi: 27. 08. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Sevil Kərimova**